UOT: 332.1; 332.122(1-21)
JEL: R 00

HÜSEYNOV T. H.
AMEA İqtisadiyyat İnstitutu, şöbə müdiri,
i.e.d, prof, Azərbaycan Respublikasının əməkdar iqtisadçısı

NAXÇIVAN İQTİSADİYYATI YENİ İSLAHATLAR MƏRHƏLƏSİNDƏ

Xülasə

Məqalədə Strateji Yol xəritəsində nəzərdə tutulan hədəflərə nail olunması məqsədi ilə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadi islahatlar və onların nəticələri araşdırılır. Dövlət büdcəsinin yerli gəlirlərinin artırılması ehtiyatları şərh edilir.

Açar sözlər: *investisiya, qadın sahibkarlığı, iqtisadiyyatın şaxələndirilməsi, yerli büdcə gəlirləri, maliyyə şəffaflığı*

GİRİŞ

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" Azərbaycanda və onun regionlarında düşünülmüş orta və uzunmüddətli hədəflərə istiqamətlənmişdir.

İqtisadiyyatın dayanaqlı inkişafının əsas amilinin islahatlardan və sahibkarlığın genişləndirilməsindən ibarət olduğunu rəhbər tutan muxtar respublikanın dövlət idarəetmə orqanları sahibkarlara dövlət maliyyə dəstəyini artırmaq, süni müdaxilələri aradan qaldırmaq, daxili bazarı xarici amillərin neqativ təsirlərindən qorumaq və sağlam rəqabət mühiti yaratmaq, istiqamətində ciddi tədbirlər həyata keçirirlər. Ölkənin Strateji Yol Xəritəsinin tələblərinə uyğun olaraq investisiyaların təşviqi, vergi və gömrük güzəştləri tətbiq edilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)"na, "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət proqramı"na, "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq ötən illərdə həyata keçirilən davamlı islahatlar nəticəsində iqtisadi inkişafın möhkəm təməli yaradılmış və sosial-iqtisadi inkişafın dinamikliyi təmin olunmuşdur.

İqtisadiyyatın investisiya təminatı

Qəbul edilmiş bu dövlət proqramlarının uğurla icrasının təmin olunmasında iqtisadi və sosial inkişafın lokomativi olan investisiyaların həlledici rolu olmuşdur. Belə ki, Naxçıvan Muxtar Respublikasında institusional islahatların həyata keçirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması nəticəsində 2011-2015-ci illərdə 4711,4 mln. manat həcmində əsas kapitala investisiya qoyulmuşdur. 2016-cı ildə 2010-cu illə müqayisədə əsas kapitala investisiyalar 2 dəfə artmışdır. Son illər Sahibkarlığa Kömək Fondunun vəsaitləri hesabına Naxçıvan Muxtar Respublikasında 43 investisiya layihəsi maliyyələşdirilmiş, bütövlükdə, sahibkara 17,3 milyon manat həcmində kredit verilmişdir. 2016-cı ildə sürətlə inkişaf edən sahələrdən biri də tikinti sektoru olmuşdur. 2016-cı ildə 14 təhsil müəssisəsi, 4 həkim ambulatoriyası, 9 feldşer-mama məntəqəsi, 29 mədəniyyət obyekti, 13 kənd mərkəzi, 14 xidmət mərkəzi, digər bina və qurğular tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Son 6 illər ərzində 5,3 mlyard manat dəyəri olan yeni əsas kapital yaradılmışdır. 2016-cı ildə Sahibkarlığa Kömək Fondu tərəfindən özəl bölməyə 15 mln. manatdan çox güzəştli kredit verilmişdir. Muxtar Respublikanın iqtisadiyyatında struktur dəyişiklikləri sürətlənir. İndi iri sənaye və aqrar-sənaye kompleksləri üstünlük təşkil edir. Əgər 1996-cı ildə muxtar respublikada cəmi 40 sənaye müəssisəsi vardırsa, 2016-cı ildə onların sayı

442-yə çatmışdır. Ən əsası odur ki, bu müəssisələrin 70 faizə qədəri yerli xammal əsasında fəaliyyət gostərir.

Muxtar respublikada qadınların sahibkarlıq sektorunda fəallığının artırılması məqsədilə müxtəlif stimullaşdırıcı tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, qadın sahibkarlarının sayı artır. 2000-2016-cı illər ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən yüngül və yeyinti sənayesi, xidmət sektorunun müxtəlif sahələri üzrə fəaliyyət göstərən qadın sahibkarlara 1,5 milyon manat həcmində kredit verilmişdir. Bundan başqa, qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması, xüsusilə onların məşğulluğunun təmin edilməsi məqsədilə daha çox qadın əməyinə ehtiyac duyulan sahələrdə nümunəvi investisiya layihələri hazırlanır və sahibkarlara təqdim edilir.

Naxçıvan iqtisadi rayonunda əsas kapitala investisiyaların mülkiyyət forması ölkə üzrə formalaşmış strukturdan fərqlidir. Belə ki, bu regionda investisiyaların 55 faizə qədəri qeyri-dövlət investisyalarıdır.

Əldə edilmiş uğurların təməlində dayanan amillərdən biri də, muxtar respublikada inkişafa kompleks yanaşmadan ibarətdir. Bu qənaətimizi əks etdirən göstəricilərdən biri investisiyaların iqtisadiyyatın bütün sahələrini əhatə etməsi və xidmət sahələrinin üstünlük təşkil etməsidir. Belə ki, son beş ildə investisyaların 60 faizə qədəri xidmət sektoruna və qeyri-istehsal infrastrukturun inkişafına qoyulmuşdur. Bu da imkan vermişdir ki, 1,8 mln. kvm-dən çox sahəsi olan yaşayış evləri, 10,2 min şagird yeri olan təhsil müəssisələri, bir çox xəstəxanalar, ambulatoriya-poliklinika müəssisələri və s. tikilib istifadəyə verilsin. Regionu fərqləndirən bir göstərici də regionda 2015-ci ildə 2005-ci illə müqayisədə mənzil fondunun 1,6 dəfəyə qədər artması və 13,5 mln. kvm təşkil etməsidir. Bu da adambaşına 26,5 kvm ümumi sahə deməkdir və bütünlükdə Azərbaycanla müqayisədə 2,2 dəfə çoxdur. Yaşayış evlərinin tikilib istifadəyə verilməsinə görə Naxçıvan MR ancaq Bakı şəhəri ilə müqayisədə geri qalır.

2017-ci ilin əvvəllərində Naxçıvana səfəri zamanı ölkə başçısı demişdir: "Çox şadam ki, Naxçıvan uğurla, surətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır. On üç il ərzində on üçüncü dəfədir ki, Naxçıvandayam. Bu rəqəm özlüyündə bir göstəricidir, onu göstərir ki, Naxçıvanın inkişafı daim diqqət mərkəzindədir... son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanır. Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var." ("Azərbaycan" qəzeti, 12.01.2017).

Sevindirici haldır ki, Naxçıvan Muxtar Respublikasında yerli istehsal hesabına ərzaq təchizatı təmin olunmuş və etibarlı mudafiə sistemi yaradılmışdır. Yerli istehsal müəssisələrinin istifadəyə verilməsinin nəticəsidir ki, hazırda muxtar respublikada 366 növdə məhsul istehsal olunur. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə yerli resurslar hesabına ödənilir.

İqtisadiyyatın diversifikasiyası

Sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla yerinə yetirilməsi nəticəsində muxtar respublikada iqtisadiyyat şaxələndirilmiş və ölkənin məhsul (xidmət) istehsalında Naxçıvan Muxtar Respublikasının payı 2015-ci ildə 2010-cu illə müqayisədə 1,5 dəfədən çox artaraq 5% təşkil etmişdir. Nəticədə regionda adambaşına məhsul (xidmət) istehsalı 2010-cu ildəki 3574 manatdan 2015-ci ildə 6806 manata çatmışdır ki, bu da Azərbaycanın digər 9 iqtisadi rayonunun müvafiq göstəricisindən 2,5-3 dəfə çoxdur.

İqtisadi inkişafın keyfiyyət göstəricilərindən biri də regionun iqtisadi strukturudur. Son dövrlərdə Naxçıvan Muxtar Respublikasında mütərəqqi struktur dəyişiklikləri baş vermişdir. Muxtar Respublikada sənaye sektoruna xüsusi diqqət yetirilmişdir. Mövcud müəssisələrin fəaliyyətinin bərpası və ya yenidən qurulması, müasir texnologiyaların tətbiqinə əsaslanan yeni müəssisələrin yaradılması sənayenin inkişafına, onun ümumi məhsul (xidmət) istehsalında 30,3 faizlik payla ilk yeri tutmasına səbəb olmuşdur. Sənayenin aparıcı rolu təmin edilmişdir. 2010-cü illə müqayisədə 2015-ci ildə sənaye məhsulunun həcmi 2,7 dəfə artaraq 917

milyon manat çatmışdır. 2017-ci ilin yanvar-iyul aylarında sənaye məhsullarının istehsalı artaraq 605 mln. manata çatmışdır. 2015-ci ildə Sumqayit və Mingəçevir şəhərlərində sənaye məhsulunun istehsalı 1990-cı ilin səviyyəsinin 13 faizini, Şirvanda 31, Gəncədə 60 faizini təşkil etmişdirsə, Naxçıvan Muxtar Respublikasında bu göstərici o dövrdəkindən 3,2 dəfə çox olmuşdur. Qeyd edim ki, Respublika əhəmiyyətli şəhərlərdən ancaq Bakı şəhəri 1990-cı ilin səviyyəsini üstələmişdir (2 dəfə). Muxtar Respublikanın zəngin xammal bazasına malik olan sənaye sahələrindən biri də tikinti materialları istehsalıdır. "Gəmiqaya Holdinq" Şirkətlər qrupunun Naxçıvan Sənaye Kompleksi keyfiyyətli inşaat materialları istehsal edən müəssisə kimi 2015-ci ildən fəaliyyət göstərir. Ümumi sahəsi 9 ha olan kompleksdə qips, qips lövhələr, əhəng və məsaməli beton blokları istehsal edən zavodlar inşa edilmişdir. Təbii daş emalı və istehsalı sektorunda yerli marka olan AZMAR şirkəti travertin və mərmər istehsalçısı olaraq dünyanın bir çox ölkələrinə Azərbaycan travertinini və mərmərini ixrac etməkdədir. "Gəmiqaya Holdinq" yerli mebel istehsalı sahəsində də xüsusi yer tutur. Son illər ölkədə yerli mebel istehsalının inkişafına böyük diqqət verilir. Belə ki, respublikanın daxili bazarlarına müxtəlif xarici ölkələrdən, o cümlədən İtaliyadan, Rumıniyadan, Polşadan, Çexiyadan, Türkiyədən müxtəlif çeşidli mebellər idxal olunur. Amma son illərdə respublikada daxili istehsalın artırılması və yerli məhsula üstünlük verilməsi nəticəsində yerli mebel fabriklərinin sayı xeyli artmışdır. Yerli mebel idxal edilən mebeldən xeyli ucuzdur və ona görə də rəqabət üstünlüyünü qoruyub saxliyir. Respublikada yüksək keyfiyyətli, nümunəvi mebel istehsal etmək və insanların məişət şəraitini daha da yaxşılaşdırmaq məqsədilə "Gəmiqaya Holdinqin" nəzdində olan "Belissa" mebel fabriki 2004-cü ildən fəaliyyətə başlamışdır. Hazırda "Belissa" müxtəlif çeşiddə mebel: mətbəx, vanna otağı dəstləri və xüsusi taxta təchizatları istehsal edən nəhəng bir sənaye qurumudur. "Gəmiqaya Holdinq" mineral su istehsalı sahəsində xüsusi yer tutur. "Gəmiqaya Mineral Sular" MMC-nin sexlərində müxtəlif həcmli plastik və şüşə butulkalarda olmaqla, 10 çeşiddə mineral su istehsal olunur. Plastik butulkalar və qapaqlar istehsalı üçün 2011-ci ilin fevral ayında istifadəyə verilmiş "Gəmiqaya Plastmas Kapsul və Qapaq" MMC-nin məhsullarından istifadə edilir.

2015-ci ildə kənd təsərrüfatı məhsullarının istehsal 2010-cu ilə nisbətən 1,6 dəfə artmışdır. 2016-cı ildə kənd təsərrüfatında məhsul istehsalı 2015-ci illə müqayisədə 3,1 faiz artmış və 429,5 mln. manat təşkil etmişdir. Daxili tələbatı təmin etmək məqsədi ilə ərzaq təhlükəsizliyinin təmin olunması Muxtar Respublikanın inkişaf strategiyasının əsas şərti hesab edilir. 2010-2015-ci illərdə digər müsbət dəyişiklik kənd təsərrüfatı sektorunun payının 1,3 dəfə azalaraq ümumi məhsul (xidmət) istehsalında 13% təşkil etməsidir. Kənd təsərrüfatında məhsuldarlığın artırılmasında rayonların ixtisaslaşdırılmasının böyük əhəmiyyətini nəzərə alaraq Muxtar Respublikada əkin atlaslarının tərtib edilməsinə və tətbiqinə başlanılmışdır.

2016-cı ildə inkişafın ümumi göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmi artaraq 2010-cu ildəki 1,2 milyard manatdan 2,6 milyard manata çatmışdır. 2017-ci ilin yanvar-iyul aylarında Naxçıvan Muxtar Respublikasinda adambaşına ümumi daxili məhsul istehsalı 5,2 faiz artaraq 3240 man. təşkil etmişdir. Ümumi daxili məhsul istehsalının 70 faizdən çoxu istehsal sektorunun payına düşür.

Naxçıvan Muxtar Respublikasinda diqqəti cəlb edən yeniliklərdən biri də kompakt ərazilərdə "Kənd Mərkəzləri" və "Xidmət Mərkəzləri" adlı strukturların yaradılmasıdır. Mərkəzlərin yaradılmasında məqsəd əhaliyə kompleks xidmətlər göstərməkdir. "Kənd Mərkəzində" rabitə evi, polis sahəsi, baytarlıq və feldşer-mama məntəqələri, kitabxana, statistika otağı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi və iclas zalı inşa edilir. Kəndlərdə yaradılan "Xidmət Mərkəzi"ndə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və sənaye malları mağazası fəaliyyət göstərir.

Əhalinin içməli su təminatının yaxşılaşdırılması ilə bağlı tədbirlər davam etdirilmiş, Naxçıvan şəhərinin, Tumbul, Bulqan, Qaraçuq və Qaraxanbəyli kəndlərinin içməli su və kanalizasiya şəbəkəsi, Culfa rayonunun Gülüstan

kəndində içməli su sistemi istifadəyə verilmişdir. Bundan başqa, Şahbuz və Culfa şəhərlərində, onlara bitişik ətraf kəndlərdə içməli su və kanalizasiya şəbəkəsinin tikintisi başa çatdırılmışdır. Kəndlərdə istifadəyə verilən suvarma sistemləri əkin sahələrinin xeyli genişlənməsini təmin etmişdir. Bütün bu işlər əhalini torpağa daha çox bağlayır.

Blokada probleminin həlli Naxçıvan Muxtar Respublikası üçün mühüm əhəmiyyət kəsb etdiyinə görə bu istiqamətdə tədbirlər kompleksi intensiv templə davam etdirilir. Belə ki, 2016-cı ildə Naxçıvan-Təbriz-Məşhəd dəmir yolu istifadəyə verilmişdir. "Şimal-Cənub nəqliyyat dəhlizi" yaxın vaxtlarda işə düşdükdən sonra Naxçıvan Muxtar Respublikasının ölkənin digər regionları ilə iqtisadi-ticarət əlaqələri tam bərpa olunacaq, Naxçıvanın yerli məhsullarının beynəlxalq bazarlara çıxışında dönüş yaradılacaqdır. Naxçıvan şəhərini rayon mərkəzləri ilə birləşdirən avtomobil yolları yenidən qurulmuşdur. Naxçıvan Beynəlxalq Hava limanında aparılan yenidənqurma işləri, yeni terminalın istifadəyə verilməsi sərnişin dövriyyəsini on dəfələrlə artırmış, Naxçıvan-Batumi-Naxçıvan avtomobil marşrutu fəaliyyətə başlamışdır.

Enerji təhlükəsizliyinin təmin olunması sahəsində işlər davam etdirilmiş, istehlakçılar elektrik enerjisi və təbii qazla fasiləsiz təchiz olunmuşdur.

Bu gun muxtar respublikada təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Hər bir kənddə, yaşayış məntəqəsində yeni məktəb binaları tikilir, şagirdlərin müasir dövrün tələbləri səviyyəsində təhsil almaları üçün hərtərəfli şərait yaradılır. Bu gün nəinki Naxçıvan şəhərində, hətta ən ucqar dağ və sərhəd kəndlərində də müasir tədris avadanlıqları, sürətli internetə çıxışı olan kompüterlər, elektron lövhələr, zəngin fonda malik kitabxanalar və idman zalları ilə təmin olunmuş məktəb binaları tikilib istifadəyə verilir. İstifadəyə verilən yüzlərlə məktəb binası, idman obyekti, mədəniyyət müəssisəsi, salınan universitet şəhərcikləri bir məqsədə-ölkənin gələcəyinin təminatçıları olan istedadlı, bilikli, sağlam və vətənpərvər nəslin yetişdirilməsinə xidmət edir. Muxtar respublikada son illər ərzində 200-ə yaxın yeni məktəb tikilib və ya əsaslı təmir edilmişdir. 2016-cı ildə bir lisey, bir məktəbəqədər, doqquz tam orta, bir orta ixtisas, iki ali təhsil müəssisəsi üçün binaların tikintisi və ya yenidən qurulması davam etdirilmişdir.

Əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi məqsədi ilə bir neçə həkim ambulatoriyası, feldşer-mama məntəqəsi üçün yeni binalar istifadəyə verilmişdir. Regionun tibb ocaqları muasir avadanliqlarla təchiz olunmuş, onlarla yeni səhiyyə müəssisələri tikilib istifadəyə verilmişdir.

Dayanıqlı inkişaf əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə də öz təsirini göstərmişdir. Belə ki, 2011-2015-ci illərdə 21 min yeni iş yeri açılmışdır ki, bunun da 94 faizi daimi iş yerləri olmuşdur. Rəsmi statistikaya görə 2012-ci ildən Naxçıvan Muxtar Respublikasında işsiz statusu verilmiş şəxslər qeydə alınmamışdır. 2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasinda əhalinin məşğulluğunun artırılması üzrə "Dövlət Proqramı"nın icrası hökumətin daim diqqət mərkəzində olmuşdur. 2017-ci ilin birinci yarısında Naxçıvan şəhərində keçirilən əmək yarmarkasına 62 müəssisədən 575 boş iş yerləri çıxarılmışdır. Özünüməşğulluq sisteminin tətbiqi əhalinin məşğulluq səviyyəsini yüksəldir və onların gəlirlərinin artmasına müsbət təsir edir. Beləliklə, demək olar ki, ölkənin 9 iqtisadi rayonundan ancaq Naxçıvan regionunda işsizlik problemi həll edilmişdir. 2015-ci ildə digər 9 iqtisadi rayonda işsiz statusu verilmiş şəxslərin sayı 16,7 min nəfər olmuşdur. Belə şəxslərin sayı ən çox Bakı şəhərində (12,1 min nəfər) və Aran iqtisadi rayonundadır (7,2 min nəfər). İqtisadiyyatda muzdla işləyənlərin sayi 2015-ci ildə 2010-cu illə müqayisədə 23 faiz artaraq 102,5 min nəfərə çatmışdır. Orta aylıq nominal əmək haqqının məbləğinə görə Naxçıvan iqtisadi rayonu birinci yerdədir. Digər iqtisadi rayonlarla müqayisədə bu göstərici Naxçıvanda 1,4-1,7 dəfə çox olmaqla, 400 manat təşkil edir. 2015-ci ildə pərakəndə ticarət dövriyyəsi və əhaliyə göstərilmiş ödənişli xidmətlər 2010-cu ilə nisbətən 1,6-1,7 dəfədən çox artmışdır.

Ölkənin regionlarının iqtisadi və sosial inkişaf səviyyəsini xarakterizə edən göstəricilər sisteminin təhlili göstərir ki, 2015-ci ildə

Naxçıvan iqtisadi rayonu adambaşına məhsul (xidmət) istehsalına, əhalinin gəlirlərinə, pərakəndə ticarət dövriyyəsinə və əsas kapitala investisiyalara görə digər iqtisadi rayonlar arasında birinci yerə çıxmışdır. Bu regionda digərləri ilə müqayisədə adı qeyd olunan göstəricilər 1,4-3 dəfə yüksəkdir.

Son illər muxtar respublika iqtisadiyyatının çoxşaxəli inkişafı yerli istehsal məhsullarının xarici bazarlara çıxış imkanlarını xeyli yaxşılaşdırmış, xarici ticarət əməliyyatlarının həcmi əhəmiyyətli dərəcədə artmışdır. Naxçıvan iqtisadi rayonunda aparılan iqtisadi siyasətin uğurlu olmasını əks etdirən göstəricilərdən biri də xarici ticarət dövriyyəsinin müsbət saldo ilə yekunlaşmasıdır. Başqa sözlə burada məhsul ixracı onun idxalından daimi 10 dəfələrlə çox olur. Məsələn, xarici bazarlara çıxışın təmin edilməsində muxtar respublikada fəaliyyət göstərən şirkətlərə ixrac təşviqlərinin verilməsi, onlara xarici bazarlara çıxış üçün müxtəlif dəstək mexanizmlərinin tətbiqi əhəmiyyətli rol oynayır. Naxçıvan Muxtar Respublikasında daxili imkanlar hesabına iqtisadiyyatın şaxələndirilməsi regionun ixrac imkanlarını artırıb. Xüsusilə yerli istehsalın həcminin ilbəil artması xarici ticarət əlaqələrinin genişlənməsinə öz töhfəsini verir. 2016-cı ildə xarici ticarət dövriyyəsinin həcmi 457,4 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət əməliyyatlarının 92 faizi ixracın, 8 faizi idxalın payına düşmüşdür. 2015-ci illə müqayisədə ixracın həcmi artmış, idxalın həcmi isə 61 faizədək azalmışdır. Bu isə yerli istehsalın inkişafının, daxili bazarın xarici məhsullardan asılılığının azalması deməkdir. Regionun məhsulları 5 xarici ölkəyə ixrac edilir. İxrac məhsulları arasında ərzaq, tikinti materialları, mebel və yüngül sənaye məhsulları üstünlük təşkil edir. 2016-cı ildə 99 mln. dollar dəyərində kənd təsərrüfatı məhsulları ixrac edilmişdir.

Kiçik və orta sahibkarlığın inkişafı naminə Azərbaycanda ilk dəfə olaraq Naxçıvan şəhərində original atdım atılmışdır. Belə ki, 2016-cı ildə İstehsal olunan məhsulların daxili bazarda dövriyyəsini təmin etmək, onların ixrac potensialını artırmaq, yerli məhsulların xarici bazarlara çıxışı ilə bağlı tiarət sövdələşmələrinin aparılması və yerli brendlərin yaradılması məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilmişdir. Originallıq ondan ibarətdir ki, bu qurum dövlət müəssisəsidir. Süd məhsullarının istehsalçıları ilə kooperasiya əsasında məhsulların satışı ilə məşğul olur. Muxtar Respublikanın Sahibkarlığa Kömək Fondundan güzəştli kreditin hesabına məhsulun qablaşdırılması və saxlanılması üçün normal şərait yaradılıb. İstehsal sahələri müasir texnoloji avadanlıqlarla təmin edilib. Kiçik sahibkarların fəal istehsalat prosesinə cəlb edilməsi üçün "Kənd pendiri", "Çaşır və baldırğan turşusu", "Bal", "Quru meyvə" istehsalı üzrə istehsalçılarla müqavilələr bağlanır, zəruri avans ödəmələr aparılır. Məhsul istehsalının bu şəkildə təşviqi kiçik istehsalçı subyektlər tərəfindən istehsal olunan məhsulların iri marketlərə çıxışına imkan yaradır və satış probleminin həllinə ciddi köməklik edir. Məsələn, "Kənd pendiri" layihəsi çərçivəsində süd emalı müəssisələri bu qurumun vasitəsilə böyük bazarlara çıxış imkanları əldə edirlər. Satış probleminin olmadığına əmin olan emal müəssisəsi heyvandarlıqla məşqul olan fermerlərlə sifariş əsasında fəaliyyət göstərir. Bu da xammaldan hazır məhsula qədər olan prosesi dəyər zənciri əsasında birləşdirir. Hazır məhsulların market və ticarət şəbəkələrində müasir ticarət qaydalarına uyğun satışının təşkili üçün onlar barkodlarla təmin edilir, tədarük olunan məhsulların saxlanması və keyfiyyətinə nəzarət məqsədilə laboratoriya analizləri aparılır. Marketinq tədbirləri çərçivəsində "Naxçıvan Məhsulları" MMC tərəfindən xüsusi tərtibatlı soyuducuların alınaraq iri marketlərdə yerləşdirilməsi, reklam işinin təşkili, avtonəqliyyat vasitələrinin alınması və bu işə təcrübəli ekspeditorların cəlb edilməsi ilə bağlı kompleks tədbirlər həyata keçirilib. "Naxçıvan Məhsulları" MMC tərəfindən muxtar respublikadan ixrac oluna biləcək perspektivli məhsullar müəyyən edilir, həmin məhsulların iqtisadi göstəriciləri və məhsuldarlığı araşdırılır. Məhsulların seçilməsində rəqabətədavamlılıq, ənənəvi və orijinal xüsusiyyətlərin olması, təbiilik və yüksək keyfiyyət kimi meyarlar diqqət mərkəzində saxlanılır. Yerli məhsulların təşviqi və ixracı

sahəsində xarici tərəfmüqabillər, market şəbəkələri və logistik şirkətlərlə müxtəlif danışıqlar aparılır, mümkün əməkdaşlıq əlaqələri qurulur. Hesab edirəm ki, bu diqqətə layiq tədbirin ölkə hökuməti səviyyəsində digər iqtisadi rayonlarda da həyata keçirilməsi məsələsinə baxılması məqsədəuyğundur.

Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinin təminatı daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə kiçik elektrik və alternatuv elektrik stansiyaları inşa edilir. Ordubad su elektrik stansiyası (illik gücü 36mvt), Tivi su elektrik stansiyası (14mvt), Qazançı su elektrik stansiyası (3,5 mvt), Naxçıvan günəş elektrik stansiyası (30 mvt qədər), Culfa rayonunda külək elektrik stansiyası və digərlərinin tikintisi nəzərdə tutulmuşdur. Naxçıvan Muxtar Respublikasının şəhər, kənd və qəsəbələrində qazlaşdırma işləri başa çatdırılmışdır.

Dinamik inkişafın təmin olunmasında investisiya qoyuluşlarından səmərəli istifadə mühüm əhəmiyyət daşıyır. Ona görə də investisiyalardan istifadənin iqtisadi səmərəliliyinin yüksəldilməsinin daim diqqət mərkəzində saxlanılması zəruridir. Apardığımız hesablamalar göstərir ki, 2011-2015-ci illərdə Naxçıvan iqtisadi rayonunda əsas kapitala investisiyaların bir manatı regionda ümumi daxili məhsulun 28 qəpik artımını təmin etmişdir ki, bu da investisiyaların iqtisadi səmərəlilik normasından 2 dəfə çoxdur.

2016-cı ilin Naxçıvan Muxtar Respublikasında "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" elan olunması iqtisadi və sosial sektorlarda qarşıya qoyulan məqsədlərə çatmaqda əhəmiyyətli rol oynamış, insanlarda məsuliyyət hissi dahada artmışdır.

Dövlət büdcəsinin yerli gəlirlərinin artırılması

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri tərəfindən təsdiq olunmuş 2014-2018-ci illəri əhatə edən Dövlət Proqramında nəzərdə tutulan hədəflərdən biri də dövlət büdcəsinə daxil olan yerli gəlirlərin ümümi daxili məhsulda həcminin və xüsusi çəkisinin artırılmasıdır. Muxtar Respublikanın iqtisadi inkişafında əldə edilən uğurlar dövlət büdcəsinin yerli gəlirlərini artırmağa imkan vermişdir. Belə ki, 2016-cı ildə Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinin yerli gəlirləri 2010-cu ilə nisbətən 1,5 dəfə çox artaraq 73,6 milyon manat olmuşdur. 2017-ci ilin birinci yarısında büdcənin yerli gəlirlərinə aid proqnozlara 110,4 faiz əməl olunmuşdur. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən maliyyə nəzarəti xeyli gücləndirilmiş və dövlət büdcəsinə əlavə vəsait bərpa edilmişdir. Rayon maliyyə orqanları qarşısında qoyulan əsas vəzifələrdən biri də nəzarət sistemində işin keyfiyyətini yüksəltmək və şəffaflığı təmin etməkdir.

Sənaye sektorunun, infrastruktur və xidmət sahələrinin inkişaf etdiyi Naxçıvan Muxtar Respublikasında gəlirlərin maliyyə uçotunda şəffaflığın yüksəldilməsi və nəzarət mexanizmlərinin gücləndirilməsi, bizim fikrimizcə, yerli büdcə gəlirlərinin artımına müsbət təsir edən əsas amillərdən biri ola bilər. Regionun büdcə gəlirlərinin müəssisələrin real maliyyə potensialına adekvat planlaşdırılmasına xüsusi diqqət yetirməyi vacib hesab edirəm. Burada gəlirlərin əsaslandırma vədigər iqtisadi göstəricilərlə əlaqələndirmə səviyyəsinin yüksəldilməsini nəzərdə tuturam. Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə başçısı İlham Əliyev bu məsələyə yenidən qayıdaraq demişdir: ... Bir çox hallarda vergilər ödənilmir...". Dövlət qurumları tərəfindən vergilərin tam şəkildə ödənildiyini, amma özəl sektorun vergini tam şəkildə vermədiyini, bizdə vergivermə mədəniyyətinin şəffaf qaydada formalaşmadığını vurğulayan ölkə başçısı sahibkarlara dövlətin pulunu 100 faiz vermələri, müvafiq dövlət qurumlarına isə heç bir əsassız tələb irəli sürməmələri barədə ciddi tapşırıqlar vermişdir. Respublikanın Prezidenti Vergilər Nazirliyinin, hüquq mühafizə orqanlarının yerli icra hakimiyyətlərinin haqq qoymalarını, pay istəmələrini, "krişalıq" etmələrini kəsgin tənqid etmiş və bütün bunlara son qoyulmqsını tələb etmişdir.

Qeyd edim ki, ölkə başçısının tapşırığına əməl edən regionların sayı ilbəil artır. Belə ki, 2015-ci ildə özünümaliyyələşdirən şəhər və rayonların sayı 7 olmuşdursa. 2017-ci ildə onların 34-ə çatacağı gözlənilir.

Bizim elmi araşdırmalarımız göstərir ki, Muxtar Respublikada bu problemin həllini təmin edən potensial mövcuddur. Belə ki,

2003-2015-ci illərdə Azərbaycanda qeyri-neft emal sənayesində tikilib istifadəyə verilmiş yeni müəssisələrin 34%-dən çoxu Naxçıvan iqtisadi rayonunun payına düşür.

Bundan başqa digər şəhər və rayonlardan fərqli olaraq, Naxçıvan Muxtar Respublikasındakı bütün dövlət və özəl müəssisə və təşkilatların (bələdiyyə müəssisələrindən başqa) vergi və digər ödənişləri, Vergi Məcəlləsinə uyğun olaraq, onun büdcəsinin gəlir mənbəyidir.

Gəlirlərin artırılmasında və regional büdcələrə daxil edilməsində yerli icra hakimiyyəti orqanlarının maraqlı olmasını təmin edən mexanizmlərdən istifadə edilməsi, mülkiyyət formasından asılı olmayaraq, müəssisələrdə istehsal xərclərinin uçotuna nəzarətin gücləndirilməsi barədə Çində və Fransada tətbiq olunan müsbət təcrübədən istifadə məqsədəuyğundur. Maliyyə və İqtisadiyyat nazirlikləri tərəfindən müəssisə və təşkilatlarla münasibətlərində tələbkarlığın yüksəldilməsi regional büdcə gəlirlərinin artırılmasının real ehtiyatlarından tam istifadə etmək üçün, bizim fikrimizcə, həlledici rol oynaya bilərlər. Ümüd edirəm ki, vergi partnyorluğu haqqında Azərbaycan Respublikasının Nazirlər kabinetinin 190 saylı 19 iyul 2013-cü il tarixli qərarı vergi şəffaflığı sahəsində tərəqqiyə şərait yaradacaqdır.

2014-2018ci illəri əhatə edən regionların sosial-inkişafına dair 3-cü dövlət proqramına əsasən Naxçıvan Muxtar Respublikasında sənayeləşdirmə tədbirləri, üzümçülük plantasiyalarının salınması, gülçülük təsərrüfatlarının yaradılması davam etdiriləcəkdir. Baramaçılığın bərpa edilməsi, balıqçılığın inkişaf etdirilməsi, "Aqroferma" ların yaradılması, yeni istehsal və sosial infrastruktur obyektlərinin tikintisinin davam etdirilməsi və mövcud olanların modernləşdirilməsi və s. tədbirlərin həyata keçirilməsi də dövlət proqramında nəzərdə tutulmuşdur. Onların uğurla realizasiya edilməsi özünümaliyyələşdirməyə dair dövlət tapşırığının yerinə yetirilməsində irəliyə doğru əhəmiyyətli addım olacaqdır.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş strateji yol xəritəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha geniş miqyaslı və yeni keyfiyyət əsasında inkişaf edəcəyinə əsas verir.

NƏTİCƏ

Naxçıvan Muxtar Respublikasında qəbul edilmiş dövlət proqramlarının uğurla həyata keçirilməsi məqsədi ilə investisiya layihələri icra edilmiş, 2011-2015-ci illərdə əsas kapitala 4,7 mlyard manat investisya qoyulmuşdur. 2016-cı ildə 2010-cu ilə nisbətən investisyalar 2 dəfə artmışdır. Muxtar Respublikada əsas kapitala investisiyaların mülkiyyət forması üzrə strukturu Azərbaycan üzrə formalaşmış strukturdan fərqli olaraq yarıdan çoxu qeyri-dövlət investisiyalarıdır. Ölkənin məhsul (xidmət) istehsalında Muxtar Respublikanın payı 2015-ci ildə 2010-c u illə müqayisədə 1,5 dəfədən çox artmışdır. Dövlət büdcəsinin yerli gəlirləri də 2016-ci ildə 2010-cu ilə nisbətən 1,5 dəfı artaraq 73,6 manat olmuşdur.

2014-2018-ci illəri əhatə edən regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Respublikasında sənayeləşdirmə tədbirləri, yeni üzümçülük plantasiyalarının salınması, baramaçılığın bərpası, balıqçılığın inkişafı, gülçülük təsərrüfatlarının yaradılması,soail və istehsal infrastrukturlarının tikintisi davam etdiriləcəkdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"

2."Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"

3."2015-2020-ci illərdə sənayenin inkişafına dair Dövlət Proqramı"

4."Azərbaycanın sənayesi" Dövlətstatkom, Bakı, 2016-2017

5."Azərbaycanın regionları", Dövlətstatkom, 2016.

6. Naxçıvan MR Statistika Komitəsi, internet saytı

Гусейнов Т. Г.

Экономика Нахичевани на этапе новых реформ

Резюме

В статье исследуются итоге проведенных в Нахичеванской Автономной Республике экономических реформ с целью выполнения задач, предусмотренных стратегическими дорожными картами и государственными программами и о развитии увеличения местных доходов государственного бюджета автономной республики.

Ключевые слова: *инвестиции, женское предпринимательство, диверсификация экономики, местные доходы бюджета, финансовая прозрачность.*

Huseynov T. H.

New stage of reforms in economy of Nakchivan

Resume

In the article are investigating result of realized economic reforms in Nakchivan Autonomous Republic with the object of to carry out problems which envisaged by strategic road maps and state programs about development of regions economy. Moreover,the reserves of increasing local revenues of state budget of autonomous republic are described.

Keywords: *investments, woman entrepreneurship, diversification of economy, local revenues of state budget, financial transparency.*

Daxil olub: 15.03.2018